

# Mikayıl Rzaquluzadə - 100

Mayın 23-də Yazıçılar Birliyində görkəmli şair, nasir və tərcüməçi Mikayıl Rzaquluzadənin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirildi. Tədbiri giriş sözü ilə Birliyin katibi, xalq şairi Fikrət Qoca açaraq M.Rzaquluzadənin şəxsiyyətindən, yaradıcılığından danışdı.

Filologiya elmləri doktoru, professor Qara Namazov yazıçının ədəbi fəaliyyətindən söz açdı:

"M.Rzaquluzadə rus və fars dillərini mükəmməl bildiyinə görə dünya ədəbiyyatının ən nadir nümunələrini Azərbaycan dilinə tərcümə edib. Şifahi xalq ədəbiyyatını mükəmməl bildiyindən "Ana ürəyi, dağ çiçəyi" hekayəsini yazdı. Bu hekayə uzun illər dərsliklərdə tədris olunub. Onun yaradıcılığında yadda qalan bir motiv də memuar ədəbiyyatıdır. Abdulla Şaiq, Səməd Vurğun, Rəsul Rza, Nigar Rəfibəyliyə həsr etdiyi yazılar ədəbiyyatda özünəməxsus yer tutur". Qara Namazov yazıçının televiziyadakı fəaliyyətindən, "Kitablar aləmində" verilişində yeni nəşr olunan kitabları təbliğ etməsindən danışdı.

Xalq şairi Qabil M.Rzaquluzadə ilə bağlı xatirələrini məclis iştirakçıları ilə bölüşdü. Onun tabiət vurğunu olduğunu, şeirlərində təbiətin füsunkar gözəlliklərini vəsf etdiyini vurğuladı, çıxışının sonunda şairin "Bənövşələr açılanda" şerini oxudu. Şair İlyas Tapdıq uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan M.Rzaquluzadənin tərcümələrindən, geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanan "Kitabi-Dədə Qorqud"la bağlı hekayələrindən bəhs etdi, yazıçını öz dövrünün ən savadlı adamlarından biri kimi səciyyələndirdi. Şair Fikrət Sadıq mərhum yazıçının gənclərə qayğı göstərən, xeyirxah, gözəl, sadə insan olmasından danışdı onu ədəbiyyatın bir parçası adlandırdı. Yazıçı-dramaturq Əli Səmədli, tərcüməçi Əlihəsən Şirvanlı, şair Oqtay Rza öz çıxışında Mikayıl Rzaquluzadə ilə bağlı xatirələrini məclis iştirakçıları ilə bölüşdülər, onun yaradıcılığının Azərbaycan ədəbiyyatında xüsusi yeri olduğunu qeyd etdilər.

Q.Məlahət